# İstedadlı uşaqlar probleminə şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqları baxımından yanaşılmalıdır

Dövlət və cəmiyyətin təhsil sistemi qarşısında qoyduğu vacib tələblərdən biri də təhsildə xüsusi istedada malik uşaqların istedadlarının erkən aşkarlanması, onların dəstəklənməsi, inkişaflarının təmin edilməsi və yaradıcılıq potensiallarının ictimai-faydalı məcraya yönəldilməsidir. Hər bir cəmiyyətin istedadlıları onun strateji milli sərvəti olduğundan istedadlılara diqqət və qayğı göstərilməsi cəmiyyət, o cümlədən təhsil sistemi üçün təcili və təxirəsalınmaz fəaliyyət sahələrindən biridir. Azərbaycanda xüsusi istedada malik uşaqlarla iş üzrə yeni yanaşmalar baxımından əhəmiyyətli işlər görülmüş və görülməkdədir. Bu kontekstdə Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun yeni strukturunda "İstedadlı uşaqlarla iş" şöbəsinin fəaliyyətə başlaması əhəmiyyətli bir hadisədir. Təhsil işçiləri və təhsilə dair qərar qəbul edən şəxslər xüsusi istedada malik uşaqlara dair məsələləri daim diqqət mərkəzində saxlayırlar. Bunun bariz nümunəsi 2006-cı ildə qəbul edilmiş və gerçəkləşdirilmiş "Xüsusi istedada malik uşaqların yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"nı misal göstərmək olar. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın müvafiq bəndlərində də xüsusi istedada malik uşaqlarla bağlı məsələlər öz əksini tapmışdır. Belə ki, Dövlət Strategiyasının strateji hədəflər və tədbirlər planında istedadlı uşaqların təhsilinin əhəmiyyət kəsb edən aspektlərinə toxunulmuşdur:

* 1.2.3. istedadlı uşaqlar üçün xüsusi inkişaf proqramlarının hazırlanması;
* 2.4. şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqları baxımından istedadın erkən yaşdan aşkar olunması, inkişafı və dəstəklənməsi üzrə sistemin yaradılması:
* 2.4.1. istedadın aşkar edilməsi üzrə qabaqcıl beynəlxalq təcrübəyə uyğun diaqnostik metodikaların, psixometrik vasitələrin hazırlanması və bütün təhsil müəssisələrində tətbiqinin təmin edilməsi;
* 2.4.2. hər bir xüsusi istedadlı təhsilalan üçün fərdi təhsil və inkişaf proqramlarının müəyyənləşdirilməsi, onların fərdi plan əsasında tədris prosesi və kurikulumdankənar məşğuliyyətinin təşkili mexanizmlərinin yaradılması.

Öz fəaliyyət planında Dövlət Strategiyasının hədəflərini rəhbər tutan TPİ-nin rəhbərliyi və təcrübəli kadr kontingenti Strategiyada qoyulan məqsədlərə çatmaq üçün bütün mövcud fürsətlərdən maksimum faydalanmağa çalışır. Xüsusi istedada malik uşaqların təhsilinin məzmun, təlim və qiymətləndirmə strategiyaları baxımından milli dəyərlərlə yanaşı ümumbəşəri dəyər və təcrübə əsasında təkmilləşdirilməsi vacib məsələlərdən biridir. Bu işə töhfə vermək məqsədilə TPİ-nin direktoru Qulu Novruzov institutun beynəlxalq əlaqələrin genişlənməsi, dünya təcrübəsinin tədqiq edilməsi və təhsil sferasında tədqiqatlar aparan nüfuzlu xarici institutlarla sıx əlaqələrin qurulması, beynəlxalq müstəvidə intensiv təcrübə mübadiləsinin aparılması vasitəsi ilə qabaqcıl nəzəri və praktiki təcrübənin öyrənilməsinə xüsusi təşəbbüslər göstərir. Bu təşəbbüslərin məntiqi nəticəsi kimi xarici ölkələrə edilən səfərlər sistemli və planlı şəkildə davam etdirilir.

Məhsuldar və faydalı səfərlərdən biri də Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun iki əməkdaşı, İstedadlı uşaqlarla iş şöbəsinin müdiri, psixologiya üzrə elmlər doktoru Elxan Bəylərov və İnklüziv təhsil şöbəsinin böyük elmi işçisi Fərid Süleymanovun Türkiyənin Antalya şəhərinə ezamiyyəsi olmuşdur. Ezamiyyənin məqsədi Türkiyənin "Beynəlxalq Xüsusi İstedada Malik Uşaqların Təhsili Proqramları" (Uluslararası Üstün Yetenekli Çocukların Eğitimi Proqramları (UYCEP)) təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilən "Üstün Zekalı və Yetenekli Çocukların Eğitiminde Farkındalık Zirvesi" seminar-konfransında iştirak etmək idi. Qeyd edək ki, səfər TPİ və UYCEP arasındakı əməkdaşlıq çərçivəsində baş tutmuşdur.

UYCEP xüsusi istedada malik uşaqların təhsili ilə məşğul olan məktəblər, universitetlər, QHT-lər ilə birgə əməkdaşlıq çərçivəsində müəyyən dərnəklərdə təlimlər təşkil edir. Bu təşkilatın əsas məqsədi uşaqlarda olan xüsusi istedadı erkən yaşdan aşkarlayaraq onların sosial, əqli və akademik ehtiyaclarını qarşılamaqdır. Uşaqların istedad potensialını aşkarlayıb onları cəmiyyətə faydalı şəxsiyyətlər kimi yetişdirmək məqsədi ilə bu təşkilat müxtəlif proqram və layihələr həyata keçirir. Bu tədbirlər çərçivəsində təşkilat ibtidai və orta təhsil səviyyəsində oxuyan uşaqların maraq və istedadına uyğun diferensiallaşdırılmış təlim kursları təşkil edir.

Əsas məqsədlərindən biri valideynlərin maarifləndirilməsi və cəmiyyətin diqqətinin xüsusi istedada malik olan uşaqların problemlərinə yönəltmək olan 2 günlük seminar-konfransda Türkiyənin doqquz müxtəlif universitetindən dosent və professorları:

Maltepe Universitetinin professoru Ümit Davaslıgil "Xüsusi istedada malik uşaqların səciyyəvi xüsusiyyətləri, təhsili və tövsiyələr"; İstanbul Ticarət Universitetinin professoru Ramazan Abacı "Xüsusi istedada malik uşaqların ünsiyyət bacarıqları"; Hacettepe Universitetinin professoru Mustafa Baloğlu "Xüsusi istedada malik uşaqların psixoloji xüsusiyyətləri"; İstanbul Aydın Universitetinin dosenti Ayşin Kaplan Sayı "Xüsusi istedada malik uşaqların təhsilində kurikulumun fərqliləşdirilməsi və nümunəvi təcrübələr"; İstanbul Universitetinin dosenti Esra Kanlı "Fənlərin təlimində xüsusi istedada malik uşaqlara dəstək"; İstanbul Kəmərburqaz Universitetinin professoru Fehmi Döner "Xüsusi istedada təsir göstərən tibbi faktorlar"; Mərmərə Universitetinin dosenti İsa Döner "Xüsusi istedada malik uşaqların qanuni hüquqları"; İstanbul Sabahattin Zaim Universitetinin dosenti Sevinç Tunalı "Xüsusi istedada malik uşaqların təhsili siyasəti"; UYCEP-in mütəxəssisi Qamze İnci "Xüsusi istedada malik uşaqlar üçün təbiətşünaslıq məşğələləri" mövzularında çıxışlar etdilər.

İstedad fenomenini hərtərəfli araşdıran Maltepe Universitetinin professoru Ümit Davaslıgil xüsusi istedada malik uşaqları hər bir ölkənin gələcəyi üçün milli xəzinə kimi qiymətləndirmiş və vurğulamışdır ki, yeni təmayüllər istedad anlayışının müəyyənləşdirilməsində yalnız bir meyara deyil, istedadın aşkarlanmasında və formalaşmasında bilavasitə təsiri olan bir sıra meyara istinad edən qiymətləndirmə modellərindən və test batareyalarından geniş istifadə olunmaqdadır. Buna örnək olaraq Renzulli modeli haqqında ətraflı danışan professor Davaslıgil bu modelə etdiyi əlavələri də auditoriyanın diqqətinə çatdırmışdır və xüsusi istedada malik uşaqların fiziki, əqli, sosial, emosional və akademik inkişafının xüsusiyyətləri və onlara yön verən faktorlar haqqında geniş təqdimat etmişdir.

Xüsusi maraq və müzakirəyə səbəb olan təqdimatlardan birini də İstanbul Aydın Universitetinin dosenti Ayşin Kaplan Sayı etmişdir. O, yalnız xüsusi istedada malik uşaqlar üçün deyil, təlim prosesinin bütün iştirakçılarının aktiv və məhsuldar interaktiv təlimə cəlb edilməsi və hər bir iştirakçının həqiqətən öyrənməsi üçün kurikulumun, təlim metodlarının, dərslik vəsaitlərinin və digər təlim vasitələrinin fərqliləşdirilməsi, məzmun və formaca zənginləşdirilməsinin əhəmiyyətini qeyd etmişdir. Səmərəli fərqliləşdirmə modeli kimi "Meyker kurikulum fərqliləşdirmə modeli"ni (Karol C. Meyker, 1982) nümunə gətirən dosent Ayşin Kaplan Sayı bu modelin 4 komponenti (məzmun, proses, mühit və nəticə) barədə ətraflı məlumat vermiş və xüsusi olaraq bildirmişdir ki, məhz xüsusi istedada malik uşaqlar üçün fərqliləşdirilən kurikulum tərtib etmək məqsədilə təlim prosesinin sürətləndirilməsi, məzmunca zənginləşdirilməsi, mürəkkəblik dərəcəsinin artırılması, tədris proqramına yeniliklərin əlavə edilməsi və fənlərarası əlaqələrin qurulması vacib şərtdir.

Hacettepe Universitetinin professoru Mustafa Baloğlunun "Xüsusi istedada malik uşaqların psixoloji xüsusiyyətləri" mövzusunda təqdimatı da xüsusi maraq kəsb etmişdir. Professor Baloğlu əsasən xüsusi istedada malik uşaqların davranış, öyrənmə və yaradıcılıqla bağlı xüsusiyyətləri, xüsusi istedada malik uşaqlar ilə bağlı geniş yayılmış stereotip və miflərdən bəhs etmişdir. Professor həmçinin aparılan empirik tədqiqatların nəticələrinə söykənərək vurğulamışdır ki, xüsusi istedada malik uşaqlarda adaptasiya olmaq bacarıqları digər tipik uşaqların bacarıqları ilə eyni səviyyədə təzahür edir. Digər müvafiq tədqiqatların nəticəsinə əsasən isə detallara aludəçilik xüsusi istedada malik uşaqlar arasında çox geniş yayılmamışdır.

İstanbul Universitetinin dosenti Esra Kanlı "Fənlərin təlimində xüsusi istedada malik uşaqlara dəstək" mövzusunda çıxışında bildirmişdir ki, ənənəvi yanaşmaya əsasən "xüsusi zəka" ifadəsi müəyyən fənlərdə akademik göstəriciləri yüksək olan insanlara, "xüsusi istedad" ifadəsi isə yaradıcılıq, incəsənət sahələri, idman və s. sferalarda yüksək göstəriciləri olan insanlara istinadən işlədilir. Bu postulata qarşı çıxış edən Esra Kanlı bildirmişdir ki, fənlər akademik bir sahə olmaqla yanaşı, həm də yaradıcılıq tələb edən bir sahədir.

Konfransda TPİ-nin İstedadlı uşaqlarla iş şöbəsinin müdiri, psixologiya üzrə elmlər doktoru Elxan Bəylərov da çıxış etmişdir. E.Bəylərov Azərbaycanın təhsil sistemində gedən islahatlar, TPİ-nin bu islahatlara verdiyi töhfələr, o cümlədən istedadlı uşaqların aşkarlanması, qabiliyyətlərinin imkişaf etdirilməsi, onların təhsil və təlimi ilə bağlı bəzi aspektlər üzrə aparılan tədqiqatlar barədə iştirakçılara geniş məlumat vermişdir. Səfər çərçivəsində TPİ-nin əməkdaşları türkiyəli həmkarları ilə istedadlı uşaqların aşkarlanması, dəstəklənməsi və onların qabiliyyətlərinin inkişaf etdirilməsi məsələlərinə dair geniş fikir mübadiləsi aparmışlar. Görüşlərdə Türkiyənin bəzi aparıcı universitetləri ilə gələcək ikitərəfli əməkdaşlıqlar barədə razılıqlar əldə edilmişdir.

Pedaqoji innovasiyalar seminarının "İstedadlı uşaqlarla işin istiqamətləri" mövzusunda keçirilən məşğələsi zamanı məruzəçi Elxan Bəylərov xüsusi istedada malik uşaqlarla aparılan işin istiqamətlərindən danışmaqla yanaşı iştirakçılara Türkiyə səfərinin nəticələri barədə də geniş məlumat vermişdir. Hazırda Gəncədə, Masallıda, Sumqayıtda, Şəkidə və Şamaxıda mərkəzləşmiş şəkildə keçirilən və Azərbaycanın bütün bölgələrini əhatə edən seminar-konfranslarda pedaqoji ictimaiyyətə "İstedadlı uşaqlarla işin istiqamətləri"nə dair dünya təcrübəsi və TPİ-də görülən işlər barədə geniş məlumat verilir.

**Elxan BƏYLƏROV,**
*TPİ-nin İstedadlı uşaqlarla iş şöbəsinin müdiri,*
**Fərid SÜLEYMANOV,**
*İnklüziv təhsil şöbəsinin böyük elmi işçisi*